# Qəbələdə sosial-iqtisadi inkişafın yeni üfüqləri

## 2016-cı ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

*Qəbələnin iqtisadi potensialı artdıqca yeni iş yerlərinin də sayı artır. Bu həm də onun nəticəsidir ki, Qəbələdə sənaye infrastrukturu ilə sosial infrastrukturun inkişafı paralel aparılır.*

**İlham ƏLİYEV.**

(Əvvəli 3-cü səhifədə).

Əhali sektorunda 1624 ədəd mexaniki, 795 ədəd smart kart tipli sayğac quraşdırılmış, 1683 ədəd qüsurlu sayğac yenisi ilə əvəzlənmişdir.

Təbii qaz istehlakçıları tərəfindən 42.324,7 min kub/metr təbii qaz istehlak olunmuşdur. İl ərzində 4.418,6 min manata qarşı 4.087,2 min manat vəsait toplanmış, ümumi yığım məbləği 92,5 % təşkil etmişdir. Həmin göstərici əhali sektoru üzrə 95,9 %, büdcə təşkilatları üzrə 96,5 %, sənaye, kommersiya və digər təşkilatlar üzrə isə 87,0 %, kommunal təşkilatlar üzrə 53,2 % olmuşdur.

İl ərzində 4.408 yeni abonentə təbii qaz verilərək, əhali abonentlərin ümumi sayı 16.543-ə çatdırılmışdır. Bum, Nic qəsəbələrinə, Qəmərvan, Mirzəbəyli və Həmzəli kəndlərinə qaz xətləri çəkilmiş, sayğaclar quraşdırılaraq qazın verilişi təmin olmuşdur. Rayon ərazisində 16 ədəd ŞQTM tipli yeni təzyiq tənzimləyicisi və 5 ədəd siyirtmə quraşdırılmışdır. Qəbələ Xidmət Sahəsi tərəfindən 13 ünvanda korroziyaya uğramış müxtəlif diametrli qaz boruları dəyişdirilərək 1.877 p/m qaz xətti çəkilmiş, ümumilikdə 5.873 yerdə qaz sızması ləğv edilmişdir.




Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 100 yerlik uşaq bağçası.

Qəbələ Su-kanal İdarəsi tərəfindən “Qaraçay” və “Duruca” su mənbələrində yerləşən anbarlar lil və qumdan təmizlənmiş, cari təmir işləri görülmüşdür. Şəhərin Nizami küçəsində təmir-bərpa işləri aparılmış, axıntıların qarşısı alınmışdır. İsmət Qayıbov, Vahid Qəhrəmanov, İmadəddin Nəsimi, Nizami Gəncəvi və Muxtar Abduyev küçələrində yerləşən yaşayış binalarında müxtəlif diametrli plastik və dəmir borular dəyişdirilərək su xətləri təmir olunmuşdur. Zarağan kəndində məcburi köçkünlər üçün inşa edilən şəhərcikdə su nasosu dəyişdirilmiş, Muxtar Abduyev küçəsində yerləşən yaşayış binalarında, Heydər Əliyev prospektində, Mirzə Fətəli Axundov və Məcid Mərdanov küçələrində kanalizasiya xətləri təmir edilmişdir. Şəhərin su və kanalizasiya təchizatının yenidən qurulması sahəsində Dünya Bankının maliyyə dəstəyi ilə ayrı-ayrı küçələr üzrə 62.652 p/metr su, 128.661 p/metr kanalizasiya xətləri çəkilmişdir. Su xətləri üzrə 2.370 ədəd, kanalizasiya xətləri üzrə 2.495 ədəd ev birləşmələri verilmişdir. Vətəndaşlara 2.100 ədəd smart tipli su sayğacları quraşdırılmışdır. İl ərzində 345,2 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmiş, həmin məbləğin 85,7 %-i yığılmışdır. Bu göstərici əhali sektoru üzrə 82 %, büdcə təşkilatları üzrə 103,7 %, kommersiya qurumları və digər müəssisələr üzrə 84 % olmuşdur.

“Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2014-cü il tarixli 961 nömrəli Sərəncamına əsasən Mirzəbəyli, Cığatelli, Seyidqışlaq, Məmmədağalı, Bəyli, Bunud və Həmzəli kəndlərində subartezian quyuları qazılaraq istifadəyə verilmişdir. Bundan əlavə ölkə başçısının sərəncamına əsasən rayonda əlavə 6 ədəd yeni subartezian quyusunun qazılması nəzərdə tutulmuş, artıq onlardan 4-də qazma işlərinə başlanılmışdır.

Qəbələ Rayon Mənzil İstismar və Kommunal Müəssisələr Kombinatı il ərzində şəhər təsərrüfatına 424,1 min manat, ictimai yaşayış binalarına 52,7 min manat, idarə və müəssisələrə 82,1 min manat, kommersiya obyektlərinə 11,8 və fərdi yaşayış evlərinə 7,2 min manat olmaqla, cəmi 577,9 min manat dəyərində təmizlik və digər kommunal xidmətləri göstərmişdir.



Nic qəsəbəsinə təbii qazın verilişi mərasimi.

Hesabat ilində 10 №-li Yol İstismarı MMC tərəfindən 1.469,9 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür. Əlavə olaraq investisiya qoyuluşu hesabına Heydər Əliyev prospektində 600 min manatlıq yenidənqurma işləri aparılmışdır.

Qəbələ Telekommunikasiya Qovşağı 1.232,2 min manat tarif gəliri proqnozuna qarşı 1.238,3 min manat gəlir əldə etmiş, proqnoz tapşırığına 100,5 % əməl etmişdir. Ümumilikdə rayon üzrə 1 şəhər EATS-i (3582 nömrə), 23 kənd EATS-i (8.288 nömrə), 3 mini EATS-i (96 nömrə) fəaliyyət göstərir ki, həmin EATS-rin ümumi montaj tutumu 11966 nömrə təşkil edir. 4 kənd (14 nömrə) peyk rabitəsi ilə təmin olunub. Hazırda rayon üzrə hər 100 ailəyə düşən telefon abonentlərinin sayı orta hesabla 50 ədəd təşkil edir. İl ərzində rayon sakinlərinə 958 telefon xətti çəkilmiş, 2.068 internet qoşulması verilmişdir. Genişzolaqlı internet xidmətindən istifadə edən abunəçilərin sayı 4.078 nəfərdir. Rayon üzrə 450 ədəd istismara yararsız rabitə dirəyi dəyişdirilərək yeni dəmir dirəklərlə əvəz edilmiş, 70 ədəd dibləri çürümüş rabitə dirəyinə beton altlıq bağlanmışdır. Seyid Əzim Şirvani, Elçin Kərimov, 28 May, İmadəddin Nəsimi, İbrahimbəy Musabəyov, Mirzə Ələkbər Sabir və Sadiq Eyyubov küçələrində ümumilikdə 2550 metr məsafədə kabel hava xətlərinin təmiri və tarıma çəkilməsi işləri görülmüşdür. Vəndam qəsəbə EATS-dən “Duyma” İstirahət Mərkəzi zonasına və Kürd kənd EATS-dən Savalan kəndinə iki ədəd 48 nömrəlik deslam avadanlığı montaj edilmişdir. Zarağan kənd EATS-i müvəqqəti yerləşdirilmiş binadan yeni tikilmiş EATS-in binasına köçürülmüşdür.

“Azərpoçt” MMC-nin Qəbələ Filialı 249,0 min manata qarşı 280,8 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığı 112,8 % yerinə yetirmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 40,4 min manat artım olmuşdur.

Dövlət Sosial Müdafiə Fondunun Qəbələ Rayon Şöbəsində 2016-cı il ərzində gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 8.613,0 min manata qarşı 7.119,2 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq, proqnoz tapşırığına 82,7 % əməl olunmuşdur. İl ərzində 1.181 sığortaedən qeydiyyata alınmışdır ki, bunlardan 40-ı hüquqi, 1.003-ü fiziki şəxs, 138-i isə pay torpaq mülkiyyətçisi olmuşdur. 1 yanvar 2017-ci il vəziyyətinə şöbədə 11.621 pensiya işi üzrə 11.909 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Hesabat dövründə pensiyaçılara ümumilikdə 22.887,8 min manat pensiya, 520,9 min manat məcburi dövlət sığorta haqları hesabına müavinətlər ödənilmişdir. Orta aylıq pensiya məbləği 1.930,4 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiya məbləği 166 manat 11 qəpik təşkil etmişdir.

(Ardı 5-ci səhifədə).